**“Elm və həyat”**.-2006.-№1-2.-S.23-26.

# ERMƏNİLƏRİN AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏTDİKLƏRİ MƏNƏVİ GENOSİD

**Vəfa QULİYEVA,**
*tarix elmləri doktoru*

**Məşədixanım NEMƏT,**
*AMEA-nın müxbir üzvü*

***Azərbaycan alimləri sübut ediblər ki, Ermənistan Respublikasının yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir. Bu fikir AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru M.Nemətin ("Корпус эпиграфических памятников Азербаиджана". Баку, 2001, т. III) və tarix elmləri doktoru V.Quliyevanın ("Роль и позиция мусульманского духовенства в социально-политической культурной жизни Азербайджана в XIX - начале XX в.в. В ракурсе армяно-азербайджанских политических отношений". Баку, 2003) əsərlərində elmi cəhətdən hərtərəfli əsaslandırılıb.***

Çoxsaylı mənbələrə (epiqrafik, orta əsr arxiv sənədlərinə) əsaslanaraq sübut olunub ki, Cənubi Qafqazda tarixən heç bir erməni siyasi qurumu mövcud olmayıb. Sənədlərin təhlili bir tərəfdən Cənubi Qafqazın yeni tarixi konsepsiyasının işlənməsini tələb edir, digər tərəfdən isə Azərbaycan tarixinin sovet rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırıldığını təsdiqləyir.

Ermənilər üçün ilk dövləti Sovet Rusiyası və Antanta dövlətləri 1920-ci ildə Qərbi Azərbaycan torpaqlarında yaradıb. Sovet İttifaqı dövründə azərbaycanlıların bu torpaqlardan sıxışdırılıb çıxarılması ilə yanaşı, onlara məxsus olan maddi-mədəniyyət abidələri dağıdılıb, yer adları erməniləşdirilibdir.

1988-ci ildən sonra kütləvi terrora məruz qalmış azərbaycanlılar Qərbi Azərbaycanı tərk etməyə məcbur olmuş və bundan sonra həmin ərazidəki azərbaycanlılara məxsus maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılmışdır.

Zəngəzurun Urud (Oront) qəbiristanlığında 1961-ci ildə aşkar edilmiş XV-XVI əsrə aid sənduqə formalı, qoç heykəlli məzar daşları üzərindəki kitabələr və qədim türk tayfalarına məxsus onqonların (tanrıların) təsvirləri (KGPA, t.I, səh.9-15, III, №№ 1042-1058) alban tayfalarının islamı qəbul etməsini və ondan çox-çox əvvəl türkləşməsini, azərbaycanlaşmasını sübuta yetirib. Bu tapıntılara qədər mövcud olan xilafət tərəfindən Qafqazın istilasından sonra alban tayfalarının erməniləşməsi və gürcüləşməsi konsepsiyası alt-üst oldu. Bu elmi kəşf azərbaycanlıların Qafqazda yerli-köklü xalq olduğunu təsdiqləyir və indiyə kimi ermənilərin "azərbaycanlılar Qafqaza gəlmə xalqdır" fikrini rədd edirdi.

Erməni "alimləri" "xəttat savadsız olmuş, kitabəni səhv yazmış deyə avlade-avğvan (alban övladları) sözünə hərflər əlavə edərək "avlağum vağudlu" kimi oxumuş, Zəngəzurda heç vaxt azərbaycanlıların yaşamadıqlarını "sübut" etməyə çalışsalar da, istədiklərinə nail ola bilməmişlər. Buna görə də orta əsr qəbiristanlığını məhv edib dağıtmışlar (Zəngəzur, Urud, indiki Oront kəndi). Dağıda bilmədiklərini isə erməni milli memarlıq abidəsi kimi təbliğ edirlər.

Anadoludan tutmuş Çinə qədər Araz boyu karvan-ticarət yolu - İpək yolu üzərində Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilmiş karvansaranı (h.729= 1328-29) ermənilər "özlərinin milli memarlıq abidəsi" kimi təqdim etmişlər. (Arutunyan V.M., Yerevan, 1984-cü il). (bax. КЭПА, т.Ш, №991, c.62). Həmin yol üzərində Zəngilanın Məmmədbəyli kəndində Yəhya ibn Məhəmməd türbəsinin (vəf.1305-ci il) qapısı üzərində qoyulmuş kitabə ölçüsü, forması, həkk olunan texnikasına görə qeyd olunan karvansara kitabəsinin eynidir. Belə kitabənin üçüncüsünə Azərbaycanın tarixi ərazisində hələ rast gəlinməyib. Qeyd olunan kitabədə XIV əsrdə İpək yolu üzərindəki bütün abidələrin müəllifi, memar Əli Məcdəddinin adı yazılmışdır.

Abidənin içərisində erməni dilində divara bir qeyd yazılmışdır. Bu yazıda olan mətnlə qapının üzərinə hörülmüş yazının mətni üst-üstə düşmür. Erməni dilində olan yazıda qeyd olunur ki, bu abidə 1332-ci ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Lazar Universitetinin müəllimi Xr.İv.Kuçuk-İoannasov iddia edir ki, "tatarlar" (yəni azərbaycanlılar) sonradan bu karvansaraya Səlim adı vermiş və ərəbcə yazını qapının üzərinə yazmışlar. Halbuki ərəbcə yazı bina tikildiyi zaman qapının üzərinə hörülmüşdür. Maraqlısı odur ki, ermənilərin nəşr elədikləri bukletdə karvansaranın adı Səlim karvansarası kimi qalıb. İstər-istəməz belə bir sual meydana çıxır, əgər bu, erməni milli-mədəni abidəsidirsə, niyə ermənilər bunu "tatarlar" adlandırdıqları kimi adlandırıblar?

Erməniləşdirmək istədikləri digər abidə Azərbaycan Qaraqoyunlu dövləti, Çuxur-Səəd əmirlərinə aid olan İrəvanın 8 kilometrliyində Cəfərabad (indiki Arqavanq) kəndində yerləşən möhtəşəm türbədir (h.816=1413 il). (А.Д.Папазян. Арабская надпись на гробнице туркменских эмиров в селе Аргаванг. Ближний и Средний Восток - сбор. Статей. М.1962,с.72-73).

Ermənilər türkmən alimlərini dəvət edərək bu abidənin bünövrəsində qazıntı işləri aparmış və belə bir qənaətə gəlmişlər ki, Qaraqoyunlu dövləti İran dövləti olub, onun başında türkmən (müasir türkmənləri nəzərdə

tuturlar) əmirləri durub və ərazisində isə erməni maddi-mədəniyyət abidəsi olub. Bu cəfəng elmi nəticə yalnız xəstə təfəkkürün məhsulu ola bilər. Qaraqoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək düzgün deyil. Çünki onlar XIII əsrdə Anadoluda yaşamış oğuz türkləri olub və türkmən adlanan yarımköçəri tayfa birləşmələrindən ibarət idilər. Onların mərkəzi vilayətləri olan Arciş Van gölünün şimalında yerləşirdi.

Bundan əlavə, memarlıq-konstruktiv formasına görə bu abidə Naxçıvanda yerləşən Möminə Xatun və Yusif bin Kəbir türbələri ilə eynidir və Əcəmi bin Əbu Bəkr memarlıq məktəbinin davamıdır. Qeyd olunan yerdə bir neçə türbə və azərbaycanlılara məxsus böyük qəbiristanlıq olmuşdur. İndi hamısı dağıdılıb.(КЭПА, т.III, № 1027, с.66-67).

1915-ci ildə Zəngəzurda və İrəvan quberniyasının ərazisində 38 və 382 şiə, 9 sünni məscidi fəaliyyət göstərirdi. İrəvan quberniyasında məscidlərin artım dinamikasının - 1904-201; 1911-342; 1915 - 382 olması müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə ruhanilərin güclü mövqeyindən xəbər verir (В.А.Кулиева. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербаиджана в XIX - начале XX вв. в ракурсе армяно-азербайджанских политических отнощений. Баку, 2003 г., с. 183. МДТА.f.290, siy.14, iş 9165, vər.128; op.23, İŞİ5146, vər.91; orada f.291. op.10, iş 6354, vər.64-67).

Məscid prixodları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seyidlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulach, Saraclı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərirdi. (V.A.Kuliyeva. s.183. MDTA f.291, siy.4, iş.2113, vər.69-74). İrəvan quberniyasının Eçmiədzin qəzasında 36, Sürməli qəzasında 47, Şərur-Dərələyəz qəzasında 63, Novobəyazid qəzasında 14, İrəvan qəzasında 54 prixod məscidləri fəaliyyət göstərirdi. (V.A.Kuliyeva. S.183.MDTA F.290, siy.2, iş 756, vər.23, 49, 53). (Prixod məscidləri kənd soveti rolunu oynayırdı.

Burada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların uçotu aparılırdı. Hər prixodun mollası var idi və o, qubernator tərəfindən təyin olunurdu). Ümumən XIX əsrin sonunda İrəvan quberniyasında 233 şiə və 14 sünnü məsçid prixodları fəaliyyət göstərirdi. (V.A.Kuliyeva. MDTA f. 290, siy.6, iş 2980, vər.19; f.291,siy.l3, iş 8385, vər.66-69; orada iş.8592, vər.1-23).

İrəvan şəhərində XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Came, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərirdi. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud idi. Binanın möhtəşəmliyi Qərbi Azərbaycanda tədrisin, elmin inkişafından xəbər verir. (V.A.Kuliyeva. s. 119-124.MDTA f.290, siyahı 10, iş 5693, vərəq 19-25).

Azərbaycanlıların bu regionda köklü xalq olduğunu toponimlər - yer adları bir daha sübut edir. Toponimlər konkret etnosun konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə, ilk növbədə yer adlarını dəyişdirirlər. Demək olar ki, bütün toponimlər erməniləşdirilib. Adını çəkdiyimiz Urud-Oront, Cəfərabad-Arqavanq, Zey-və-Metsamor və s. adlandırılıb. Bu da azərbaycanlıların bu torpaqlarda olan izlərinin tamamilə itirilməsi məqsədini güdür (V.A.Quliyeva. s. 172-212; Həsən Mirzəyev. Qərbi Azərbaycanın Dərələyəz mahalı. S.46-64, 89-143, 173-213, 257-270).

Zəngəzurun Pir Davudan kəndində XIX əsrin sonunda 8-ci imam Rzanın nəvəsi Mir Davudun məqbərəsi var idi. Qara Vəli kəndində 7-ci imam Museyi Kazımın oğlu Seyid Əhmədin məqbərəsi yerləşirdi. (V.A.Kuliyeva. S.119.MDTA f.290, siy.2, iş 747, vər.6). Bu məqbərələr tamamilə dağıdılıb.

İrəvan quberniyasının müxtəlif yerlərində məscidlərin vəqf əmlakları yerləşirdi. Bu, əsasən torpaq sahələri, dükanlar idi. Sənədlər vəqf əmlaklarının sərhəd olduğu torpaqların azərbaycanlılara məxsusluğunu təsdiq edir. Bu isə həmin regionda azərbaycanlıların çoxluq təşkil etdiyinə bir sübutdur (V.A.Kuliyeva. s. 118-124).

Mənbələrə əsasən demək olar ki, 1919-cu ildə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlılar əhalinin 72,3%, Sürməli qəzasında 96%, İrəvan qəzasında 60,2%, İrəvan qəzasında Milistan və Vedi-Basar mahallarında 90% təşkil edirdilər (V.A.Kuliyeva. s. 212).

Böyük təəssüf hissi və ürək ağrısı ilə qeyd etmək lazımdır ki, hal-hazırda bütün bu abidələr dağıdılıb.

Şamaxıda 1918-ci il mart qırğınları zamanı XII əsrin abidəsi olan Came məscidi dağıdılıb, 13 prixod məscidi yandırılıb, məhv edilibdir (V.Kuliyeva.s.216).

Qarabağda yerləşən abidələr də ermənilər tərəfindən kütləvi surətdə dağıdılır və erməniləşdirilir. Ermənilər çalışırlar ki, bu yolla öz işğalçı siyasətlərinə haqq qazandırsınlar. Eyni zamanda dünya ictimaiyyətinin nəzərini başqa istiqamətə yönəltmək məqsədi ilə azərbaycanlıların Naxçıvanda erməni qəbiristanlıqlarını dağıtmaları haqqında cəfəng məlumatlar yayırlar.

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri ermənilər tərəfindən mənimsənilir və erməni mədəniyyət abidələri kimi təqdim edilir. Bu haqda "əsərlər" rus, erməni, Avropa dillərində çap olunur (Самвел Карапетян. Памятники армяской культуры в зоне Нагорного Карабаха. 2000 г.; Шаген Мкртчян. Сокровища Арцаха. Ереван, 2000 г.). V.Quliyevanın kitabında Samvel Karapetyanın kitabına geniş rəy verilib. (səh. 172-212).

Lakin qeyd olunan ərazidə, həm Dağlıq Qarabağ ərazisində, həm də ona sərhəd və ermənilər tərəfindən hal-hazırda işğal olunmuş zonada külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikililər, orta əsr qəbiristanlıqları, məscidlər və s. müsəlman abidələri yaxın zamanlara qədər mövcud idi. 15 ildir ki, biz bu ərazilərə nəzarət edə bilmirik və bu abidələrin indiki vəziyyətindən xəbərimiz yoxdur.

Bu abidələrin üzərində olan yazılar memarların, alimlərin, xəttatların, nəqqaşların, sufi şeyxlərinin,

Azərbaycanda memarlıq məktəblərinin banilərinin adlarını aşkarlayır. Həkərə çayının hövzəsində yerləşən bir sıra türbələr öz memarlıq-konstruktiv formasına görə seçilir. Bunlardan Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən Yəhya ibn Məhəmməd, Cəbrayıl rayonunun Şıxlar kəndində Şıxbaba türbələrini misal gətirə bilərik (XIV əsr). Şıxbaba türbəsinin ətrafında orta əsr qəbiristanlığı yerləşir. Türbədən bir qədər aralı Şeyxzadə Şeyx abd as-Salam ibn Şeyx Qiyas əd-Dinin (759 h.=1358 il) məzarı yerləşir. Türbənin ətrafında şeyxin davamçılarının baş daşları pərakəndə şəkildə yerləşir. Yazıların paleoqrafik xüsusiyyətlərinə, bədii tərtibatına görə Şıxbaba Qədiriyyə sufi xanəgahının fəaliyyət dövrünü XIII-XIV əsrlərə aid etmək olar.

Bu ərazilərdə XIV-XIX əsrlərə aid sənduqə, başdaşı formalı qoç , at heykəlli qəbir daşları ərəb-fars-azərbaycan dilli yazılar və müxtəlif relyeflərlə xalqımızın həyat, məişətinin müxtəlif tərəflərini əks etdirir, xalqın tarixinə, toponimikasına, xalq təbabətinə, etnoqenez məsələlərinə aydınlıq gətirir, Azərbaycanın orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır.

Azərbaycanın Laçın rayonunun Malıbəyli kəndində aşkarlanmış üç at heykəlli qəbir daşında (XVI-XVII əsrlər) və Armazisxevidə yerləşən (XIV əsr) at heykəlli abidənin bud tərəfində həkk olunan üç horizontal və bir vertikal xətt çox maraqlıdır. Qarabağ abidələrindəki epiqrafik məlumatlardan və təsviri incəsənət motivlərindən Cənubi Qafqazda Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış qədim türk tayfalarının məskunlaşmasını müəyyən etmək olar.

Laçın rayonunun Malıbəyli, Güləbird kəndlərində at heykəlli qəbir daşlarında günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri var. Məlumdur ki, qədim türk xalqlarının tanrısı Humay quşu idi. Və bunun abidələrin üzərində təsvir olunması, güman ki, abidələri dağılmaqdan qorumaq məqsədini daşıyırdı.

Epiqrafik abidələr Qarabağda gedən tikinti işlərindən, Qarabağ xanlarının mədəni-maarif sahəsindəki fəaliyyətindən xəbər verir. Bu abidələr sırasına Füzuli rayonunun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsini aid etmək olar. Bərdədə də bir türbə və Axsadanbaba türbəsinin bünövrəsinin qalıqları var. Bu, naxçıvanlı memar Əhməd bin Eyyub əl-Hafiz an-Naxçıvaninin işidir.

Cəbrayıl rayonunun Xocalı kəndində, köhnə qəbiristanlıqda yazının bir parçası aşkar olunub. Həmin yerdə, yolun qırağında iki başdaşı aşkarlanıb. Başdaşıların yuxarı hissəsində heyvan təsvirləri - dağ keçiləri var və Qobustanda, Abşeronda olan qayaüstü təsvirləri xatırladan müxtəlif tamqalar həkk olunub.

Cəbrayıl rayonunda Diridağ platosunda orta əsr qəbiristanlığı yerləşir. Orada dağılmış türbə var. Türbənin ətrafında müxtəlif bədii formaya malik qəbir daşları qalıbdır, onlardan ikisi qoç heykəllidir və Azərbaycanın digər dağətəyi rayonlarında mövcud olmuş abidələrin analoqudur.

Ağdamın rayon mərkəzində "İmarət" deyilən memarlıq kompleksində XVI əsrə aid orta əsr qəbiristanlıqlarından yığılmış sənduqə formalı qəbir daşları cəmlənmişdir.

Laçın rayonunda Ağoğlan məbədinə gedən yolun sağında XVI əsrin at heykəlli və sənduqə formalı qəbir daşları var idi.

Füzuli rayonunun Əhmədallar kəndində, orta əsr qəbiristanlığının yerində sənduqə formalı qəbir daşı qalmışdı (1024 h.= 1615 il). Qarğabazar kəndində, "Şah Abbas" karvansarasından yuxarı, qayanın üstündə "Qiyas əd-Din" məscidi durur. Yerli əhali onu "Şah Abbas" məscidi adlandırırdı. Kənddə yerləşən bulağın üzərində üç sətirlik ərəbdilli yazı var. Yazıda deyilir ki, bulağı 1305-ci ildə gəncəli Əmir Qarğabazarlının oğlu tikdirib.

Qarabağ xanı Pənah xanın mərmər başdaşısı Ağdamda yerləşən türbəsindən Azərbaycan Tarix Muzeyinə köçürülüb.

Laçın rayonunun Cicimli kəndində 1790-1791-ci ildə çaylaq daşından düzbucaqlı planda tikilmiş məscid binası mövcuddur.

Şuşa şəhərində memar Kərbəlayi Səfixan Qarabağlı tərəfindən inşa edilmiş iki məscid və iki mədrəsə binası var. Bu haqda məlumatı məscidin üzərindəki kitabə xəbər verir. Memarın adına Füzuli rayonunun mərkəzində yerləşən məscidin, Bərdə və Ağdamda olan məscidlərin, Şuşa şəhərinin bir sıra məhəllə məscidlərinin üzərində də rast gəlmək olar. Bütün bu abidələr XIX əsrin ikinci yarısına aiddir. (М.С.Неймат. Надписи джума-мечети, находящейся в г. Шуше. Изв. АН Аз.ССР. Серия общественных наук. №1, 1961г, с.47, 58 на аз.яз.; ее же, Епиграфические памятники Карабаха.Ж-л "Азербайджан и азербайд-жанцы", №11-12, 2002 г.; Р.Гарабаглы. Архитектор Кербалаи Сафихан Гарабаги. Баку, 1995, сс. 18-24, 30-35, 40-57).

XIX əsrin sonunda Şuşada 17 məscid fəaliyyət göstərirdi. Bunlar: Yuxarı Came məscidi, Aşağı Came məscidi, Təzə məhəllədə təmir olunmuş məscid, Malıbəyli, Gülablı, Şelli, Yusifcanlı, Mərəzəli, Xəzəristan, Lembran, Ağcabədi, Xəlil Fəxrəddinli, Xunaşınqərar kəndlərində məscidlər fəaliyyət göstərirdi. Şuşa uyezdində Hacı Yusifli, Heydəri, Hamam, Cula, Məriyanlı, Rahatlı, Dəmirçi, Hacı Mircanlı, Çoluçağa, Məhəli, Çuxur, Quyluq, Dördlər qurdu, Qapan kəndlərində də məscidlər var idi. (MDTA f.290,siy.24, iş 124, vər.5,6).

Həmin illərdə Cəbrayıl qəzasında 15 məscid və 16 məscid prixodu mövcud idi. (MDTA f. 291, siy.21, iş 255, vər.35-37; orada, siy.2, iş 555,vər. 58-75).

1904-cü ildə Şuşa qəzasında 29 şiə məscidi, Cəbrayıl qəzasında 10 şiə məscidi fəaliyyət göstərirdi. 1911-ci ildə şiə məscidlərinin sayı Şuşa qəzasında 50-yə, Füzuli qəzasında isə 19-a çatır (V.A.Kuliyeva. səh.55-56).

Bu abidələrin indiki vəziyyətindən bizim xəbərimiz yoxdur.

A.A.Xaçaturyan (Yerevan), 1987-ci ildə nəşr etdirdiyi "Корпус арабских надписей Армении VIII-XVI вв." kitabında abidələri görmədiyi halda, Naxçıvan, Zəngəzur, bütün Azərbaycan, Kars, Anadolu abidələrini erməni

mədəniyyət və incəsənət nümunələri kimi təqdim edir.

1828-ci ildən Azərbaycana köçürülmüş ermənilər hələ sovet hakimiyyəti zamanı yaşadıqları Ordubadın Der kəndində azərbaycanlılara məxsus orta əsr qəbiristanlığını erməni qəbiristanlığına çevirmişlər.

Şamaxının Kəlaxana kəndində yaşayan qriqoryan tatlar XIV-XVII əsr qəbiristanlığında sənduqə formalı məzar daşlarını dağıdıb yerində üzüm əkmişdilər.

Əmirəcan kəndindəki Nizaməddin məscidinin portalındakı kitabə də qazılaraq pozulmuşdu. Sonradan bərpa olunmuşdur.

Bərpa idarəsində işləyən erməni inşaatçı ustaları Bakıda Came məscidi kompleksində olan mədrəsə kitabəsini torpağa basdırmış, Came məscidi bünövrəsindəki Şirvan ordusunun baş komandanı şəhid Əbu Yaqub Yusifə həsr olunmuş kufi yazılı xatirə lövhəsini ovub oxunmaz hala salmış, Bakı qala hasarında daşnak partiyasının emblemini həkk etmişlər.

**Ümumiyyətlə, son 200 ildə Azərbaycan xalqı və onun maddi-mədəniyyət abidələri ermənilər tərəfindən genosidə məruz qalmışdır. Azərbaycan torpaqlarının işğalının ardınca kütləvi surətdə abidələr məhv olunur, erməniləşdirilir, yer adlan dəyişdirilir. Nə qədər ki, Azərbaycan torpaqları işğal altındadır bu mənəvi genosid davam edəcək!**